

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 172 (21.324)

3 sentyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvandan başlanan müstəqillik yolu



***3 sentyabr 1991-ci il. Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan bu gün milli dövlətçiliyimizin xilası, ölkəmizin gələcəyini müəyyənləşdirən gün kimi xalqımız tərəfindən daim bayram əhval-ruhiyyəsi ilə qeyd olunur. Məhz bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə naxçıvanlının təkidi ilə Azərbaycan xalqının xilaskarı, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyev Ali Məclisin Sədri seçilmişdir. Bununla da, qədim Naxçıvanda milli qurtuluşun, milli dövlətçiliyin təməlləri atılmış, həmin gün xalqımızın tarixində ulu öndərin adı ilə bağlı olan daha bir möhtəşəm səhifə açılmışdır.***

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda çox ağır ictimai-siyasi vəziyyət hökm sürür, sosial-iqtisadi böhran hər gün daha da dərinləşirdi. Həmin illərdə ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvan, həqiqətən də, taleyin ümidinə buraxılmışdı. Məhz buna görə də 1990-cı ilin iyulunda ulu öndər Heydər Əliyevin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıtması muxtar respublika əhalisi tərəfindən böyük ümid və sevinc hissi ilə qarşılanmış, bu tarixi hadisə Azərbaycanı Azərbaycana qaytarmaq missiyasının başlanğıcı, istinad nöqtəsi olmuşdur.

1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq ümummilli lider Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürməklə muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz ulu öndərimizin yenidən siyasi hakimiyyətə qayıdışında görmüşdür. Ulu öndər 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçilmişdir.

1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası deputatların istəyi və böyük təkidi nəticəsində ümummilli lider Heydər Əliyevin sədrliyi ilə öz işinə başlamışdı. Sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı. Azərbaycan Prezidenti cənab İlham Əliyev həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların tarixi əhəmiyyətindən danışarkən demişdir: ***"O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. ...O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür".***

Blokada vəziyyətinin yaratdığı çətinliklərə sinə gərən, düşmən təcavüzünə qarşı rəşadətlə mübarizə aparan naxçıvanlılar ulu öndər Heydər Əliyevə böyük məhəbbət bəsləyir, ona güvənirdilər. İnsanlar çox yaxşı bilirdilər ki, Naxçıvan yalnız görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə üzləşdiyi təhlükələrdən, ağır sosial-iqtisadi problemlərdən xilas ola bilərdi. Ona görə də naxçıvanlılar ulu öndərin Ali Məclisin Sədri kimi fəaliyyətini davam etdirməsini arzulayırdılar. Vətənə sədaqətlə xidmət nümunəsi yaradan dahi şəxsiyyət də öz xalqına güvənir, ona arxalanırdı. Çünki O, həmişə xalq üçün yaşamış, xalq üçün fəaliyyət göstərmiş və doğma Vətəni uğrunda canını belə əsirgəməyəcəyini dəfələrlə bəyan etmişdi. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra sessiyadakı ilk çıxışında ulu öndər öz taleyini xalqa tapşırdığını bildirərək demişdir: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Həmin illərdə dünya şöhrətli siyasətçi Heydər Əliyev Ali Məclisin Sədri kimi ilk öncə üç tərəfdən düşmən hücumuna məruz qalan Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirmişdir. 1991-ci il sentyabrın 7-də Ali Məclis Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların yüz faiz muxtar respublikada saxlanması təmin olunmuşdur. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradılmış, Naxçıvanın müdafiə potensialı gücləndirilmiş, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası Naxçıvanda qoyulmuşdur.

Naxçıvanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Ümummilli liderimiz Heydər Əliyev Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi bu mənada xüsusi əhəmiyyətə malikdir. Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunmuşdur. Bu bayram artıq bütün dünya azərbaycanlıları tərəfindən birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd edilir.

Ümummilli lider Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atmış, 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər etmiş, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmış, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdu. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsullıqları fəaliyyətə başlamışdır.

Naxçıvanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də ümummilli liderimizin diqqət mərkəzində olmuşdur. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olmuşdur. Bu qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amil olmuş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmışdır.

1992-ci il noyabrın 21-də Naxçıvanda ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə baş verdi: müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradıldı. Ciddi ictimai sifarişin nəticəsi olaraq zamanın çağırışlarına cavab vermək məqsədilə yaradılan Yeni Azərbaycan Partiyası ölkədəki və regiondakı ictimai-siyasi proseslərin əksədası olaraq, ən başlıcası isə xalqın arzu və istəklərinin reallaşdırılması üçün siyasət meydanında qısa zaman ərzində böyük nüfuz qazandı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Heydər Əliyevin 1970-ci-1980-ci illərdə gördüyü işlər, Azərbaycanın inkişafına verdiyi töhfələr və Sovet İttifaqının dağılma ərəfəsindəki fəaliyyəti, cəsarətli addımlar, qanlı 20 Yanvar faciəsinin pislənməsi, Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi təsis edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi, Sovet İttifaqının saxlanmasına dair referendumun burada keçirilməməsi – bütün bu amillər, əlbəttə ki, xalqda Heydər Əliyevə olan məhəbbəti birə on artırırdı. 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır".***

Xalqımızın və dövlətimizin taleyinin həll olunduğu bir dövrdə meydana çıxan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoydu. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ən önəmlisi isə ulu öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

Azərbaycanın siyasi burulğanlar məngənəsindən çıxa bilmədiyi 1991-1993-cü illərdə Naxçıvanda ümummilli liderimiz tərəfindən taleyüklü addımlar atılırdı. Ulu öndərin ölkəmizin müstəqilliyini təmin etməyə istiqamətlənmiş qərarları bəzi antimilli dairələri ciddi narahat edirdi. Ancaq xalqımızın böyük oğlu Heydər Əliyevin çox qüdrətli, nəhəng bir siyasi xadim olduğunu da çox yaxşı bilirdilər. Ona görə də ulu öndərə qarşı siyasi mübarizə metodlarına sığmayan vasitələrdən istifadə etməyə çalışırdılar. 1992-ci il oktyabrın 24-də ozamankı iqtidarın təhriki ilə bir qrup silahlı şəxs Naxçıvanda ilk dövlət çevrilişi cəhdinə əl atdı. Muxtar respublika Daxili İşlər Nazirliyinin və dövlət televiziyasının binaları ələ keçirildi. Lakin Heydər Əliyev dühasına inanan, onunla həmrəy olan xalqın qətiyyətli mövqeyi nəticəsində çevriliş cəhdi tam iflasa uğradı. Bu hadisə bir daha göstərdi ki, naxçıvanlılar ölkəni məhvə sürükləyən Xalq Cəbhəsi-Müsavat iqtidarını yox, məhz ümummilli lider Heydər Əliyevin siyasi xəttini dəstəkləyir, Naxçıvanın, bütövlükdə isə Azərbaycanın xilasını ONUN uzaqgörən siyasi fəaliyyətində görürlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "QAYIDIŞ" kitabında həmin hadisələri belə şərh etmişdir: ***"Heydər Əliyevin Naxçıvanda yenidən siyasətə qayıtması Azərbaycanı bir dövlət kimi dağıtmaq istəyən daxili və xarici düşmənləri ciddi təşvişə salmışdı. Ozamankı iqtidar Naxçıvanı iqtisadi və informasiya blokadasında saxlayır, Heydər Əliyevin əleyhinə hər cür yaramaz təbliğatı qızışdırır, yaltaq, ikiüzlü deputatların vasitəsilə Onu Azərbaycan parlamentində iştirakdan və ölkədə cərəyan edən siyasi proseslərdən təcrid etməyə çalışırdı. Qarabağ probleminin həlli ilə bağlı Heydər Əliyevin irəli sürdüyü təkliflər "Qarabağ heç vaxt indiki qədər bizim olmayıb" məddahlığı ilə qarşılanır, hadisələrin düzgün qiymətləndirilməməsi ucbatından siyasi proseslər getdikcə millət, xalq üçün təhlükəli xarakter almağa başlayırdı".***

O zaman hakimiyyətdə olanların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində 1993-cü il iyun ayının əvvəllərində respublikada yaranmış gərgin ictimai-siyasi hadisələr kulminasiya nöqtəsinə çatdı, silahlı qarşıdurmalar fonunda hakimiyyət böhranı, siyasi böhran bütün ölkəni öz cənginə aldı. Azərbaycan öz dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ulu öndərimiz Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi, onun nicatı uğrunda siyasi mübarizəyə başladı və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu.

15 iyundan başlayaraq ulu öndərin müdrik daxili və xarici siyasəti nəticəsində hüquqi-demokratik dövlət quruculuğu, Milli Ordunun formalaşdırılması istiqamətlərində əsaslı addımlar atıldı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər görüldü, işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində ardıcıl,

*Ardı 2-ci səhifədə*

fəal xarici siyasət yürüdüldü. Xalqın təkidi ilə ümummilli liderimizin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi inkişaf və siyasi sabitlik müstəqilliyimizin möhkəmləndirilməsində, sivil dünyaya qovuşmasında, beynəlxalq aləmə inteqrasiyasında və müasir cəmiyyətin qurulmasında həlledici rol oynadı. Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi sayəsində regionların inkişafı proqramının düşünülmüş və məqsədyönlü həlli ilə Azərbaycanda kompleks inkişafa nail olundu.

Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Bu yolu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düzgün, düşünülmüş siyasəti ölkəmizi uğurlardan uğurlara aparır. Bu gün Azərbaycan mühüm siyasi, iqtisadi, mədəni tədbirlərə ev sahibliyi edir. Azərbaycan ən mötəbər idman yarışlarının təşkilatçısı olmaqla yanaşı, həm də idman ölkəsi kimi mühüm nailiyyətlər qazanıb. Bu gün Azərbaycan dünyada sülhün, qardaşlığın, insan hüquq və azadlığının təmin olunduğu ölkə kimi tanınır. Bütün bu nailiyyətlərin təməlində isə ümummilli lider Heydər Əliyev yoluna sadiqlik və bu yolun uğurla davam etdirilməsi dayanır.

Naxçıvan Muxtar Respublikasında da ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət yeni inkişaf erasının başlanmasına rəvac vermişdir. Ulu öndər Heydər Əliyev deyirdi: ***“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.*** Bu gün çiçəklənən, sürətlə inkişaf edən Naxçıvan məhz ulu öndərin arzularındakı əzəmətli Naxçıvandır. Bu gün Naxçıvan blokada şəraitində yüksək inkişafa qovuşan, əhalisi rifah və sabitlik şəraitində yaşayan Naxçıvandır. Bu gün Naxçıvan güclü ordusu və müdafiə potensialı olan qüdrətli Naxçıvandır. Bu gün Naxçıvan elm, təhsil, səhiyyə, mədəniyyət, idman mərkəzlərindən biri kimi dünyaya adını yazdıran şöhrətli Naxçıvandır. Bu gün Naxçıvan mühüm enerji potensialı ilə dünyaya işıq saçan nurlu Naxçıvandır. Bu gün Naxçıvan qədim keçmişi ilə öyünən, müasir inkişafı ilə qürur duyan ulu Naxçıvandır. Bir sözlə, bu gün Naxçıvan keçdiyi inkişaf yolu ilə ulu öndərin ideyalarına sadiqliyi təcəssüm etdirən sədaqətli Naxçıvandır.

Ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisədir. Bu hadisə xilaskarlıq missiyasını həyata keçirən görkəmli dövlət xadimi Heydər Əliyevin həm də böyük siyasətə qayıdışına yol açması baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvandan başlanan xilaskarlıq yolu Azərbaycanın şanlı tarixində yeni səhifə açmaqla müstəqil ölkəmizin işıqlı gələcəyini təmin etmişdir.

**“Şərq qapısı”**

# Milli dəyərlərin hamisi

## *Xalqımızın milli dəyərlərinin yaşadılması və tarixi yaddaşının bərpasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur*

***Hər bir xalqı yaşadan onun milli dəyərlərinin – dilinin, adət-ənənələrinin, mədəniyyətinin olduğunu tarix dəfələrlə sübut etmişdir. Məhz milli dəyərlərinə görə də xalqlar bir-birindən fərqlənirlər. Ona görə ölkəmizdə bu dəyərlərin qorunmasına həmişə mühüm əhəmiyyət verilmişdir. Qeyd edək ki, yetmiş illik sovet rejimi dönəmində bir çox milli dəyərlərimizə müəyyən qadağalar qoyulmuşdu. Buna baxmayaraq, öz dərin köklərinə bağlı olan xalqımız əsrlərin sınağından keçib gələn bu qiymətli sərvətimizi qorumuş və bu günümüzə gətirib çatdıra bilmişdir. Unudulmaqda olan bu milli sərvətin bərpası və inkişafı yolunda ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə xeyli iş görülmüşdür.***

1969-1982-ci illərdə ulu öndərimizin səyi nəticəsində Azərbaycan sosial-iqtisadi və mədəni cəhətdən böyük inkişaf yolu keçmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin həmin illərdə həyata keçirdiyi tədbirlər bugünkü müstəqil Azərbaycan dövlətinin yaranmasına səbəb olmuşdur. Milli düşüncəli ziyalıların dahi şəxsiyyət Heydər Əliyev tərəfindən himayə olunması, milli dəyərlərimizin elmi cəhətdən öyrənilməsi istiqamətindəki təşəbbüslər zaman keçdikcə öz bəhrəsini vermişdir.

Azərbaycanın siyasi tarixinin son 45 ildən artıq bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz bütün həyatını doğma xalqının, Vətəninin tərəqqisinə həsr etmiş, milli dövlətçiliyimizin, müstəqilliyimizin əbədi olmasını, milli dəyərlərimizin qorunub indiki nəslə çatdırılmasını təmin etmişdir.

Azərbaycanda sovet hakimiyyətinin elan edilməsindən sonra milli dəyərlərimiz, adət-ənənələrimiz keçmişin qalığı kimi qiymətləndirilərək yasaq olunmuşdur. Milli dəyərlərimiz haqqında düşünən kəslər, milli ruhu və dəyərləri qoruyub saxlamaq istəyən ziyalılar xalq düşməni adı altında məhv edilmişdir. Doğma dilimiz olan Azərbaycan dili 1978-ci ilə kimi dövlət dili statusu almamışdır. Tariximizi təhrif edərək xalqımızı öz soykökündən ayırmağa çalışmışlar.

Milli dəyərlərimiz xalq tərəfindən gizli də olsa, qorunub saxlanılır, yaşadılırdı. 1969-cu ildə xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsi ilə bu sahədə tarixi dönüş baş vermişdir. Rəsmi tədbirlərdə Azərbaycan dilində çıxış edən ulu öndər Heydər Əliyev tariximizə, mədəniyyətimizə, adət-ənənələrimizə, milli dəyərlərimizə sahib çıxaraq, onları qoruyub saxlayaraq inkişaf etdirirdi. Bu dövrdə yeni yaşayış məntəqələrinə və obyektlərə milli qəhrəmanlarımızın adları verilir, tarixi yer adları bərpa olunur, “Nəsimi”, “Babək”, “Dədə Qorqud” kimi filmlər çəkilirdi. Azərbaycan ədəbiyyatında, musiqisində, təsviri sənətində xalqın milli ruhunu, adət-ənənələrini təbliğ və tərənnüm edən çoxsaylı yaradıcılıq nümunələri meydana çıxırdı.

Dahi şəxsiyyət Heydər Əliyevin siyasi fəaliyyətinin 1969-1982-ci illərini öyrəndikcə görürük ki, ulu öndər dilimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza məhz dövlətçilik mənafeləri baxımından yanaşmışdır. Ümumiyyətlə, xalqımızın böyük oğlu Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə məqsəd və məramı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməklə, xalqın milli dirçəlişi, milli qürur hislərinin oyanışı ilə müstəqil dövlətimizi yaratmaq olmuşdur.

1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndərimiz milli dəyərlərin qorunub yaşadılması sahəsində ötən əsrin 70-ci illərindən başlanan işləri Azərbaycanın müstəqil dövlətçilik şəraitində davam etdirmiş, milli dəyərləri milli dövlət quruculuğunun aparıcı elementinə çevirmiş, Azərbaycançılığı ümummilli ideologiya kimi irəli sürmüşdür. Bu ideologiyanın əsasını təşkil edən milli dövlətçilik, vətənpərvərlik, adət-ənənələrə bağlılıq prinsipləri bu gün də milli dəyərlərimizin yaşamasına təminat verir. Müstəqillik illərində də milli dəyərlərimizə münasibətdə ulu öndər Heydər Əliyevin mövqeyi aydın, tələbi qəti idi: ***“Gərək hər bir insan, xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə, yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”.***

Ümummilli lider Heydər Əliyev milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: ***“Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.***

Milli dəyərlərimizə dərindən bələd olan ümummilli lider xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq, Azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: ***“Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır”.***

Görkəmli dövlət xadimi Heydər Əliyev milli dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanılmasını, inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür və göstərirdi ki, bunları qoruyub-saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır. Çünki milli dövlətçilik və milli dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Ulu öndər deyirdi ki, milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli dəyərlərin qorunmasının və müstəqil inkişafının təmin olunması məqsədi daşıyır.

Heç bir dövlət başçısı, heç bir siyasi lider milli ideologiyanın mühüm və əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyanın yaradılması, onun həyata keçirilməsi sahəsində ulu öndərimiz Heydər Əliyev qədər şəxsi əzmkarlıq göstərməmişdir. Dahi rəhbər milli dəyərlər uğrunda mübarizənin önündə həmişə özü gedir və milli ziyalılarımızı da bu istiqamətdəki fəaliyyətə səfərbər edirdi. Ulu öndər hətta rəsmi sərəncamlarla, xüsusi qərarlarla milli yaddaşın bərpasına, milli köklərə qayıdışın sürətləndirilməsinə istiqamət verirdi. Belə ki, Füzulinin 500 illik yubileyinin, “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin böyük təntənə ilə keçirilməsi məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü idi.

Təbii ki, bütün bunlar – milli ideologiyamızın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş Azərbaycançılıq xətti bir tərəfdən Azərbaycanda vahid milli dövlətçiliyin formalaşmasını, milli yetkinləşmə və bütövləşməni nəzərdə tuturdusa, digər tərəfdən Azərbaycan dilinin bir dövlət dili olaraq inkişafını və ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini əsas götürürdü. Ulu öndər üçün ana dili Azərbaycançılıq ideologiyasının başlanğıc məqamı, təməl prinsipi, ən böyük milli dəyər idi. Məhz bu baxımdan dahi şəxsiyyət qeyd edirdi ki, xalqa milli dəyərləri aşılamaq üçün, ilk növbədə, ona dilini qaytarmaq və sevdirmək lazımdır: ***“Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir, şeirlərimiz, mahnılarımız, incəsənətimiz, xalqımıza mənsub olan adət-ənənələrimizdir”.***

Sevindirici haldır ki, ümummilli liderimizin bu sahədə müəyyənləşdirdiyi ənənələr müqəddəs bir miras kimi yenə də yaşadılır, qorunur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf kursunun uğurları sayəsində Azərbaycan bu gün lider ölkəyə çevrilmişdir. Azərbaycan mədəniyyətinin inkişafına, milli dəyərlərimizin yaşadılmasına dövlətimiz xüsusi qayğı göstərir. Ölkə başçısının sərəncamı ilə Azərbaycan klassik ədəbiyyatının yeni əlifba ilə nəşr edilib xalqa çatdırılması bu sərvətlərin qorunması naminə ən uğurlu addımlardan biridir.

Dövlət başçısı xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Bu siyasətin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 fevral 2015-ci il tarixdə imzaladığı “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” Sərəncam milli-mədəni irsi qoruyub yaşatmağa və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasına xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 25 iyul 2015-ci il tarixli Sərəncamı ilə “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilmişdir.

Dövlət siyasətində hər bir azərbaycanlının, hər şeydən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli dəyərlərini qoruması önə çəkilir. “Gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərməğan edilməlidir” prinsipi əsas götürülür. Bütün bunlar müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, Azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Müasir dövrdə şəxsiyyətin formalaşmasında milli dəyərlərin təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və milli dəyərlərə qayğı ilə yanaşmaq, eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı ümumbəşəri dəyərlərin müsbət tərəflərini əxz etmək çox vacib şərtdir. Bu reallığın düzgün qiymətləndirildiyi Naxçıvan Muxtar Respublikasında milli dəyərlərin qorunması və inkişafı daim diqqət mərkəzində saxlanılır. Azərbaycanın siyasi-iqtisadi və sosial inkişafına öz layiqli töhfələrini vermiş muxtar respublikamızda milli dəyərlərə böyük diqqət, qayğı və hörmət göstərilir. 1995-ci ildən muxtar respublikamızda milli dəyərlərimizin, milli tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin, adət-ənənələrimizin qorunması, zənginləşdirilməsi həmişə diqqət mərkəzində olmuşdur. Milli dəyərlərə hörmət və ehtiramla yanaşma, bu dəyərlərin elmi baxımdan öyrənilməsi, təbliğ edilməsi istiqamətində aparılan məqsədyönlü siyasət böyük nailiyyətlərin qazanılmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2012-ci ilin “Milli dəyərlər ili” elan olunması isə muxtar respublikamızda bu sahədə həyata keçirilən tədbirlərin daha intensiv xarakter almasına geniş imkanlar açmışdır.

Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı artıq bir neçə ildir ki, diyarımızda xalqımızın milli dəyərlərinin təbliği işinə çox ciddi töhfələr verməkdədir.

Doğma Naxçıvanımız neçə illərdir, böyük tikinti meydançasını xatırladır. Hər il diyarımızın müxtəlif ünvanlarında onlarla yeni obyektlər istifadəyə verilir. Qürurverici haldır ki, yeni inşa olunan, yaxud əsaslı şəkildə yenidən qurulan bütün sosial obyektlərdə, həyata keçirilən digər quruculuq tədbirlərində, ilk növbədə, milli arxitektura üslubuna üstünlük verilir. Bu da milli dəyərlərə sadiqlik, beş min ildən artıq şəhərsalma tarixi olan bu ulu, qədim diyarın dünənini yaşatmaq, bu gününü gələcəyə daşımaq baxımından mühüm əhəmiyyət kəsb edir.

*Bu gün muxtar respublikamızda milli dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlər xalqımızın bu dəyərlərə sadiqliyinin, ulu öndərin müqəddəs irsinə dərin hörmətin təzahürü, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin mənəvi irsinin təbliği işinə də böyük töhfədir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi:* ***“Milli dəyərləri olmayan millət həqiqi millət, milli dəyərləri olmayan xalq həqiqi xalq ola bilməz. Bizim milli dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Biz öz milli dəyərlərimizlə fəxr edirik”.***

**Namiq MƏMMƏDOV**
*Azərbaycan Respublikasının Əməkdar müəllimi*

# Müasir yollar
# Naxçıvanın hərtərəfli inkişafının göstəricisidir

***Naxçıvandakı yolların tarixi çox qədimdir. Yolları insanların hərəkət trayektoriyası rolunu oynayan vasitə kimi qəbul etsək, Naxçıvan yolları keçmişdən bu günümüzədək hərəkətli və strateji əhəmiyyətli yollar olmuşdur. Çünki insanların məskunlaşdıqları ən qədim yerlərdən biri olan Naxçıvan tarixən mühüm ticarət yolları üzərində yerləşən coğrafi ərazidir. Dünyanın mühüm yollarından biri hesab edilən qədim İpək Yolunun əsas qollarından biri Naxçıvan ərazisindən keçmişdir.***


Naxçıvan-Culfa magistral avtomobil yolu

Təsadüfi deyil ki, orta əsrlərdə Naxçıvan uğrunda gedən mübarizənin əsas səbəblərindən biri də ticarət baxımından əlverişli olan bu yollara nəzarətin ələ keçirilməsi idi. Sonrakı dövrlərdə də bu yollar öz əhəmiyyətini qoruyub saxlamışdır. Ötən əsrin 70-80-ci illərində ölkənin bir çox yerlərində olduğu kimi, Naxçıvan ərazisində də yol infrastrukturunun inkişafına ciddi diqqət yetirilmişdir. XX əsrin 90-cı illərinin əvvəllərində yaranmış böhranlı vəziyyət, eyni zamanda Ermənistan tərəfindən Azərbaycana qarşı başladılmış ədalətsiz müharibə nəticəsində muxtar respublikanın yol infrastrukturuna da ciddi ziyan dəymiş, yeni yolların çəkilməsi, təmiri işləri, demək olar ki, tamamilə dayandırılmışdı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikanın blokadaya salınmasının, regionun sosial-iqtisadi tənəzzülə yuvarlanmasının əsas səbəblərdən biri də yolların bağlanması idi. Naxçıvanın paytaxtla əlaqəsini təmin edən avtomobil və dəmir yollarındakı hərəkətin qarşısının alınmasının hansı çətinliklər yaratdığını muxtar respublika sakinləri yaxşı xatırlayırlar.


Ayrınc-Qızıl Qışlaq-Kükü avtomobil yolu

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf ölkə iqtisadiyyatının tərəqqisində mühüm rol oynayan avtomobil yollarının bərpası və yenidən qurulmasına da əlverişli şərait yaratmışdır. Xüsusilə Naxçıvanla Türkiyə və İran İslam Respublikası arasında çoxtərəfli əlaqələrin inkişafında mühüm rol oynayan körpülərin salınması, həmin körpüləri birləşdirən daxili yolların, eyni zamanda muxtar respublikanın əsas yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının təmiri və yenidən qurulması yol infrastrukturunun formalaşdırılmasında atılan ilk və mühüm addımlar idi.

Doğrudur, blokada vəziyyəti indiyədək davam etsə də, alternativ yollardan istifadə imkanları, eyni zamanda muxtar respublikanın daxili yol infrastrukturunun təkmilləşdirilməsi bu qədim diyarın hərtərəfli inkişafında öz sözünü demiş, nəticədə, Naxçıvanın bütün yaşayış məntəqələrini birləşdirən yolların, demək olar ki, çox böyük bir hissəsi yenidən qurulmuşdur. Naxçıvanda yol çəkilişlərini, avtomobil yollarının yenidən qurulmasını regionun inkişaf göstəricisi kimi qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***“Yol tikintisi inkişaf, insanların normal, rahat yaşaması üçün əsasdır. Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda bu proses sürətlə gedir və həll olunur”.***


Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu


Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolu

“Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı” Azərbaycanda, eləcə də muxtar respublikada yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks yanaşmanı ortaya qoydu. Naxçıvan ərazisindən keçməklə Qərb və Şərq sivilizasiyalarını birləşdirən Böyük İpək Yolunun bərpası istiqamətində görülən işlər bu yanaşmanın təzahürü olmaqla, həm də ölkəmizdə uğurla həyata keçirilən irimiqyaslı layihələrdən sayılır. Ötən illər ərzində bu yol üzərində yerləşən 88 kilometrlik Naxçıvan-Sədərək magistralının, 8 kilometrdən artıq uzunluğa malik Naxçıvan dairəvi avtomobil yolunun, 32 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolunun inşası uğurla başa çatdırılmışdır. 2012-ci ilin may ayında muxtar respublikaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Böyük İpək Yolunun bir hissəsi olan Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışında iştirak edərək muxtar respublikada yol infrastrukturunun yeniləşməsi istiqamətində görülən işləri yüksək qiymətləndirmiş, Naxçıvanın tranzit mərkəzə çevrilməsinin əsas hədəflərdən biri olduğunu diqqətə çatdırmışdır: ***“Bu yolun açılması Naxçıvanda böyük yol-nəqliyyat layihələrinin icrasının təzahürüdür. Biz iki il bundan əvvəl Naxçıvan-Sədərək avtomobil yolunun açılışını qeyd etmişik. Gözəl, dördzolaqlı, rahat yoldur. İndi Naxçıvan-Culfa magistral yolunun açılışını qeyd edirik. ...Beləliklə, Naxçıvan tranzit mərkəzə çevrilməkdədir”.***

Xatırlatmaq lazımdır ki, dövlət başçısının müvafiq sərəncamları ilə uzunluğu 39 kilometr olan Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi və uzunluğu 57 kilometr olan Çeşməbasar-Boyəhməd avtomobil yollarının yenidən qurulması həmin istiqamətlərdə olan yaşayış məntəqələrinə gediş-gəlişi asanlaşdırmışdır. Bundan əlavə, tikintisinə 2012-ci ildən başlanılmış və ötən il istifadəyə verilmiş Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun yenidən qurulması da muxtar respublikanın əsas avtomobil yolları şəbəkəsini özündə birləşdirən kompleks quruculuq tədbirlərindəndir. Adıçəkilən avtomobil yolunun yenidən qurulması digər tərəfləri ilə yanaşı, muxtar respublikanın turizm potensialından səmərəli istifadə üçün də hərtərəfli şərait yaratdı. Muxtar respublikada yol quruculuğu sahəsində görülən işlərin növbəti ünvanı yenə də ölkə başçısının müvafiq sərəncamı ilə yenidən qurulan və 13 kənd yaşayış məntəqəsini birləşdirən Hacıvar-Sirab-Vayxır avtomobil yolu oldu. Bu avtomobil yolu Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun Vayxır kəndi ərazisindən Babək rayonunun Hacıvar kəndinədək olan 26 kilometr məsafəni özündə birləşdirməklə avtomobillərin Naxçıvan şəhərinə daxil olmadan Şahbuz-Culfa-Ordubad və əks istiqamətdə 12 kilometr məsafəyə qənaət etməklə rahat hərəkət etməsinə şərait yaratmışdır.

Yol tikintisi sahəsində həyata keçirilən tədbirlər bu gün də davam etdirilir. Hazırda Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2014-cü il tarixli “Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncamına uyğun olaraq, adıçəkilən marşrutlar üzrə avtomobil yolu yenidən qurulur. Yenidən qurulan yol 31 min nəfər sakinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun uzunluğu 35 kilometrdir. İlkin olaraq burada yolun genişləndirilməsi həyata keçirilmiş, torpaqbərkitmə işləri aparılmış, ehtiyac duyulan yerlərdə su keçidləri qoyulmuşdur. Hazırda inşaatçılar dairəvi yolun ayrı-ayrı hissələrinə asfalt salınması ilə məşğuldurlar.

Muxtar respublikada magistral yollarla yanaşı, yerli əhəmiyyətli yolların yenidən qurulması da diqqət mərkəzində saxlanılır. Xüsusilə son illər ən ucqar dağ və sərhəd kəndlərinin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin təmin edilməsinə, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur. Hazırda muxtar respublikanın müxtəlif kənd yaşayış məntəqələrindəki avtomobil yollarının təmiri və ya yenidən qurulması işləri davam etdirilir.

Yol tikintisi mürəkkəb prosesdir. Bunun üçün, ilk növbədə, xammal ehtiyatı, müasir emal müəssisələri və güclü maddi-texniki baza tələb olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində muxtar respublikada bu sahədə ardıcıl tədbirlər görülmüş, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilmiş, yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalına nail olunmuşdur. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan idarələrin maddi-texniki bazası da xeyli möhkəmləndirilmiş, müxtəliftəyinatlı tikinti texnikaları alınaraq muxtar respublikaya gətirilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər yol tikintisinin səmərəli təşkilinə şərait yaratmış, müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunmuşdur. Yol-nəqliyyat infrastrukturunun inkişafına göstərilən diqqətin nəticəsidir ki, 1995-2014-cü illər ərzində muxtar respublikada 2592,4 kilometr uzunluğunda yol yenidən qurulmuş, avtomobil yollarında 100-dən artıq körpü tikilmişdir.

Bəli, müasir yol mənzil başına çatmaq üçün bir vasitə sayılsa da, təkcə fiziki məna kəsb etmir. Rahat və yaraşıqlı yollar həm də sosial, iqtisadi, mədəni, strateji tərəfləri özündə əks etdirir. Buna görə də keçmiş zamanlardan yol çəkdirmək, körpü saldırmaq savab işlərdən sayılmışdır. Bu təşəbbüsdə olanlara hər zaman hörmət və ehtiramla yanaşılmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev yolu iqtisadiyyat, mədəniyyət, həyat amili kimi dəyərləndirərək onu yüksək qiymətləndirirdi. Ulu öndər Azərbaycana rəhbərliyinin hər iki dövründə yol infrastrukturunun yenilənməsinə böyük töhfələr vermiş, ölkədə yeni yollar və körpülər salınmasını diqqətdə saxlamışdır. Bu sahədə görülən işlər muxtar respublikada da uğurla icra olunmuş, nəticədə, rahat və müasir yollar Naxçıvanın hərtərəfli inkişafının göstəricisinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Yol tikintisi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür”.***

✍ **Səbuhi HƏSƏNOV**

## Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün kurs başa çatıb

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən avqust ayının 19-dan başlanan kursa yekun vuruldu. Muxtar respublikada yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan tarixinin, mədəniyyətinin və miqrasiya sahəsində qanunvericiliyin öyrədilməsi üçün keçirilən kursun son günü iştirakçılar Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində oldular.***

Muzeyin bələdçisi Hicran Bədəlova bu mədəniyyət müəssisəsi haqda tədbir iştirakçılarına ətraflı məlumat verərək bildirdi ki, muzeyin fondunda ulu öndərimizin həyat və fəaliyyətini əks etdirən 4552 eksponat toplanıb.

Qeyd edildi ki, Azərbaycanın son 45 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi xalqımızın böyük oğlu Heydər Əliyevin adı və dövlətçilik fəaliyyəti ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş, inkişaf baş verib, Azərbaycan zamanın ağır və sərt sınaqlarından çıxıb, yaşayaraq tərəqqiyə qovuşub, regionda lider dövlətə çevrilib.

Muzeylə tanışlıq əsnasında həmsöhbət olduğumuz İran İslam Respublikasının vətəndaşı, muxtar respublikaya Təbriz şəhərindən gəlmiş Yusif Sadri qeyd etdi ki, dahi insana aid eksponatlar, ümumilikdə, muzeyin ekspozisiyası ona görkəmli dövlət xadimi Heydər Əliyev haqda ətraflı məlumat almaq imkanı verdi. Buna görə Dövlət Miqrasiya Xidmətinə və onun əməkdaşlarına minnətdardır.

Türkiyə vətəndaşı Selahaddin Güneri də muzeyi ziyarətdən böyük məmnunluq hissi keçirdiyini dedi və qeyd etdi ki, muxtar respublika Dövlət Miqrasiya Xidmətində keçirilən kurs, ümumilikdə, Naxçıvanı, onun dahi şəxsiyyətlərini tanımaq baxımından çox əhəmiyyətli olub. Bundan başqa, kurs zamanı Azərbaycan xalqının tarixi, adət-ənənələri, ölkənin turizm imkanları və tarixi abidələri, Azərbaycanın dövlətçilik tarixi, ulu öndərin dövlətçilik tarixindəki rolu haqda onlara ətraflı məlumat verilib, habelə onların hüquqi vəziyyəti, olduğu yer üzrə qeydiyyatı, müvəqqəti yaşama, daimi yaşama və iş icazələrinin verilməsi qaydaları barədə dərslər təşkil edilib. Bütün bunlar əmək miqrantları tərəfindən minnətdarlıqla qarşılanıb.

“Naxçıvanda işləmək də, yaşamaq da insana zövq verir”. Bunu qardaş Türkiyə Cümhuriyyətinin vətəndaşı, bu ölkənin paytaxtı Ankara şəhərindən gəlmiş Muhammed Gündüz Ateş deyir. Qeyd edir ki, hər səhər qısa müddətə də olsa, evdən çıxıb şəhəri gəzir və şəhərdəki sakitlik, əmin-amanlıq, yaşıllıqlar, bir-birindən gözəl binalar, park və meydanlar, gül-çiçəklər ona zövq verir, yaşamağa həvəsləndirir. Bildirir ki, artıq uzun müddətdir, Naxçıvandadır, ancaq bir dəfə də olsun küçədə ictimai asayişi pozan bir insanla qarşılaşmayıb. Hər kəs bir-birinə qarşı mehriban, son dərəcə nəzakətli, qonaqlara qarşı son dərəcə həssasdır. O, böyük şəhərdə yaşamış bir insan kimi deyir ki, Naxçıvanın sakitliyi, təmizliyi, qayda-qanuna son dərəcə əməl olunması başqa ölkələrə nümunə olacaq tərzdədir.

Məlumat üçün bildirək ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin inzibati binasında təşkil edilən məşğələlərdə xidmətin əməkdaşları ilə yanaşı, Mədəniyyət və Turizm Nazirliyinin, AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin nümayəndələri də yaxından iştirak ediblər. Bundan başqa, muxtar respublikada fəaliyyət göstərən Bayraq Meydanı Muzeyi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Naxçıvan Dövlət Tarix Muzeyi, Bəhruz Kəngərli Muzeyinə ziyarətlər təşkil edilib.

✍ **Səbuhi HÜSEYNOV**

# Uğura aparan yol

*Bu qədim diyarımda*
*uğurlara yol açan,*
*Günəş kimi nur saçan*
*yeganə bir yol vardır...*
*Bu ulu diyarımı*
*zirvələrə qaldıran,*
*Adını, imzasını*
*tarixlərə saldıran*
*yeganə bir yol vardır...*
*Dünənimdən başlanıb,*
*Bu günümdən keçən yol,*
*gələcəyə gedən yol...*
*Bir yol var...*
*Yolçusunu həyatda*
*daim məmnun edən yol...*

*Bir yol var...*
*Bu yolda yolçu olmaq*
*həm asandır, həm çətin.*
*Bu yolun yolçuları*
*mərd, qürurlu və mətin.*
*Bu yol fərdi yol deyil –*
*Bu yolda yolçu olub*
*böyük, müdrik millətim.*

*Bir yol var...*
*Bu yolda görünməyib*
*nə çiskin-boran, nə qar.*
*Bu yolun son ucunda*
*zirvə var, yüksəliş var.*

*Bir yol var...*
*Bu yol eniş tanımaz,*
*yoxuşunda zəfər var.*
*Bu yol zülmət tanımaz,*
*burda ancaq səhər var.*
*Günbəgün işıqlanır,*
*bu yol nura bələnir.*
*Yolçusunun başına*
*ancaq uğur ələnir.*

*Bir yol var...*
*Bu yolla babam gedib,*
*Bu yolla atam gedib,*
*Bu yolla mən gedirəm.*
*Bu yolla yürüməkdən*
*zövq duyur, fəxr edirəm.*

*Bir yol var...*
*Həm bizdən xeyli əvvəl,*
*Həm bizdən xeyli sonra*
*bu yol olub, olacaq.*
*Bu yolu tutub gedən*
*hər vaxt öndə gedəcək,*
*daim qalib olacaq.*
*Bu yol ulu öndərin*
*bizlərə əmanəti.*
*Bu yol müstəqilliyin*
*ən böyük zəmanəti.*

*İndi hər çəkilən yol*
*Onun bizə qoyduğu*
*Yoldan yol alıb gedir.*
*İndi doqquz milyonun*
*Tək bircə yolu vardır –*
*O yolla xalqım gedir.*

*Nə yaxşı ki bu yol var...*
*Yoxsa, bu xalqın halı*
*söylə, necə olardı?!*
*Hər gün döyüş, qan-qada,*
*Anaların gözləri*
*yenə yaşla dolardı.*

*Nə yaxşı ki bu yol var –*
*bu yol Qurtuluş yolu,*
*bu yol Nicat yoludur.*
*Bu yol zülmətdə işıq*
*Ümid, Həyat yoludur.*

*Nə yaxşı ki bu yol var...*
*Yoxsa, bizi zülmətdən*
*kim, necə çıxarardı?!*
*Düşmən onda çox idi –*
*Olmasaydı bu haqq yol,*
*İndi Vətən yox idi.*

*Nə yaxşı ki bu yol var...*
*Yoxsa, uşaq kimiydik –*
*Bilmirdik bu dünyanın*
*astarı nə, üzü nə?*
*Qaranlıqdan yenicə*
*çıxmışdıq gün üzünə.*
*"Azadlıq" günəşinin*
*şüasından qamaşır,*
*gözümüz yaşarırdı.*
*Hərc-mərclik,*
*özbaşnalıq*
*ölkədə baş alırdı...*

*Nə yaxşı ki bu yol var...*
*Yoxsa, heç nə beləcə*
*yolunda yürüməzdi.*
*Uğurlar, qələbələr*
*YURDUMU bürüməzdi.*

**Qafar QƏRİB**

# dünən Naxçıvan şəhəri bu gün










## Şagirdlərə məktəbli ləvazimatları verilib

***Muxtar respublikamızda sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sağlam böyüməsi, biliklərə yiyələnmələri, milli-mənəvi dəyərlərə sadiq vətəndaş kimi yetişmələri, problemlərinin yerindəcə həll olunması istiqamətində həyata keçirilən tədbirlər bu qəbildən olan uşaqlara dövlət qayğısının bariz ifadəsidir.***

Bu tədbirlərin davamı olaraq 15 sentyabr – Bilik Günü ərəfəsində Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə yuxarıda adıçəkilən kateqoriyalardan olan məktəblilərə geyim forması, məktəbli çantası və dərs ləvazimatları təqdim olunub.

Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində təşkil olunan tədbiri giriş sözü ilə təhsil naziri Piri Nağıyev açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb. Muxtar respublika əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək şagirdləri qarşıdan gələn Bilik Günü münasibətilə təbrik edib, onlara təhsildə uğurlar arzulayıblar.

Sonda aztəminatlı, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş məktəbli uşaqlara və sağlamlıq imkanları məhdud şagirdlərə məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları verilib.

Tədbirdə iştirak edən sağlamlıq imkanları məhdud uşaqların valideynləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Təhsil Nazirliyi hər iki valideynini itirmiş 32, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 257 sağlamlıq imkanları məhdud, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi isə aztəminatlı ailələrdən olan və ya hər iki valideynini itirmiş 76 uşağı təhsil sovqatı ilə sevindirib.

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na əsasən, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilmədikləri üçün distant tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud 22 uşağa məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları evlərində təqdim olunub.

**Səbuhi HÜSEYNOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 678